"Söz" jurnalı kifayət qədər ömür yolu keçib. Tanınmış şair, jurnalist Şəkər Aslandan üzü bəri bu yolu davam etdirən, bu yolun cəfasını çəkən yazıçı, piblisist Sevda Əlibəyli olub. Ayrı-ayrı vaxtlarda Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərinin, nəşriyyat, poliqrafiya mütəxəssislərinin, böyük siyasi xadimlərin... portiretlərini təqdim edən sayları ilə "Söz" jurnalı yaddaşlara yazılıb.

"Söz" jurnalının növbəti sayı gözlərimizin önündədir. Jurnalın üz qabığında Azərbaycanın tanınmış dövlət xadimi Nəsirulla Nəsirullayevin xatirə lövhəsi üçün verilmiş barellefin şəkli verilib.

Doğrudur müəllif jurnalın bu sayı üçün əsas olaraq Nəsirulla Nəsirullaye-




# "SÖZ" İŞIQDIR

vin obrazını təqdim etsə də, ilk səhifələrdə Şuşa fatehliyini, Qarabağın azadlığını diqqətdə saxlayır. Məşhur mahnı mətninin əsas motivini improvizə edərək "Şuşanın dağları başı bayraqlı" yazısı ilə qələbəmizin sevincini qeyd edir.

Sonra "baş redaktordan" qeydində oxucuya müraciətlə yazır: "Əziz oxucu, "Söz" jurnalının əməkdar mühəndisi, iqtisadçı alim, ən başlıcası adı böyük hərflə yazılan insan və azərbaycanlı Nəsirulla Nəsirullayevin həyat və fəaliyyətinə həsr olunub. Onun 57 il yarımlıq ömür yolunun real yaşantılarını, gələcək nəsillər üçün örnək olası xüsusiyyətlərini qələmə almağa çalışmışıq". Bundan sonra Nəsirulla Nəsirullayevin həyatının xarakterik tarixlərini diqqətə çəkir. Onun 1920-ci ilin 25 oktyabrında Bakı şəhərində anadan olduğunu, 1978-ci il aprelin 26-da vəfat etdiyini oxucularına çatdırır. Əbədi məkanının birinci fəxri xiyaban olduğunu qeyd edir.

Sevda Əlibəyli cəfakeş jurnalistdir. "Şərəfli ömrün səhifələri" adı ilə görkəmli mütəxəssisin həyat yoluna nəzər salır. Onun Ulu Öndərin rəhbərliyi ilə gördüyü işləri oxuculara çatdırır. Nəhayət, Azərbaycan Respubliukasının prezidenti İlham Əliyevində Nəsirulla Nəsirullayevlə bağlı sərəncam və göstərişlərini, eləcə də Nəsirulla Nəsirullayevi tanıyanların xatirələrini, düşüncələrini oxucularla bölüşür. Əgər belə demək mümkünsə, jurnalın bu sayında biz Azərbaycan tarixinin çox dəyərli səhifələri ilə tanış oluruq.

Nəsirulla Nəsirullayevi "Söz" jurnalı yeni sayında bütöv şəxsiyyət, görkəmli mütəxəssis, tanınmış dövlət adamı kimi təqdim edə bilmişdir.

***Ceyhun ZALLI***

Kredo 2021.- 3 mart.- S.5.